AZƏRBAYCAN BAROMETRİ №7 (11)

Avqust / 2020

STM

# ORTA MƏKTƏB DƏRSLİKLƏRİNİN VƏZİYYƏTİNƏ DAİR HESABATIN İCMALI




SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
Onbirinci buraxılış

Avqust 2020

# ORTA MƏKTƏB DƏRSLİKLƏRİNİN VƏZİYYƏTİNƏ DAİR HESABATIN İCMALI

**Müəllif:**
Əfqan VƏLİYEV
İctimai rəyin öyrənilməsi departamentinin
baş məsləhətçisi

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti

Bakı - 2020

## Giriş

Təhsilin məzmunu, onun öyrədici, tərbiyələndirici və inkişafetdirici xüsusiyyətləri dərsliklər vasitəsilə konkretləşdirilir. Dərslik məsələsini təhsil islahatlarının prioritet istiqamətlərindən biri hesab edən Təhsil Nazirliyi son illər bu sahədə bir sıra ciddi addımlar atıb. Belə ki, Təhsil Nazirliyi tərəfindən məktəb dərsliklərinin ekspertizası və qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə təsis edilmiş Dərslikləri Qiymətləndirmə Şurasına yeni seçkilər keçirilib, ehtiyat dərsliklər fondu yaradılıb, dərsliklərin ictimai müzakirəsi təşkil edilib, dərsliklərin hazırlanması və tətbiqi prosedurlarında dəyişikliklər edilib, dərsliklərin monitorinqini aparmaq, müəllimlərin dərsliklər haqqında fikirlərini, irad və təkliflərini öyrənmək üçün işçi qrupları yaradılıb. Bundan başqa, Azərbaycan Respublikasının Təhsil İnstitutunda dərsliklərlə bağlı ayrıca şöbə yaradılıb.

Dərsliklərin hazırlanmasında əsas məqsəd məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Bu işdə təkcə dərsliklərin məzmunu deyil, onların yazılma metodikası, üslubu, tərtibatı, keyfiyyəti məsələləri də diqqət mərkəzində olmalıdır.

Bütün bunları nəzərə alaraq Sosial Tədqiqatlar Mərkəzi tərəfindən orta məktəb dərsliklərinin vəziyyətinə münasibəti öyrənmək məqsədilə 10 iyun – 15 iyul 2019-cu il tarixləri arasında ibtidai sinfin şagirdlərinin valideynləri və yuxarı sinif şagirdləri, eləcə də müəllimlər arasında ictimai rəy sorğusu keçirilmişdir. Problemin öyrənilməsinə yanaşma sistemində müasir şagird və onun oxuduğu dərsliyin öyrənilməsi əsas götürülmüşdür. Problemin mahiyyəti ondan ibarətdir ki, yeni şəraitdə cəmiyyətin tələbatı, dövlət siyasəti və ölkədə olan məktəb dərsliklərinin səmərəli və faydalı, müasir olması üçün real imkanlar arasında ziddiyyətlər və ya uyğunsuzluqlar müşahidə edilir.

Sosioloji araşdırma prosesində şagirdlərin, valideynlərin və müəllimlərin fikirləri əsasında Azərbaycanda orta məktəb dərsliklərinin real vəziyyəti öyrənilmiş, onların təkmilləşdirilməsinə dair fikirlər ümumiləşdirilmiş və bunların əsasında konkret təkliflər irəli sürülmüşdür.

Təqdim edilən icmal bu istiqamətdə Mərkəz tərəfindən hazırlanmış Analitik Hesabatın əsas istiqamətlərini özündə əks etdirir.

## Orta məktəb dərsliklərinin vəziyyətinin təhlili

Sosial Tədqiqatlar Mərkəzinin 423 respondent və ekspert arasında keçirdiyi ictimai rəy sorğusu tədqiqatın əsas nəticələrinin təsbiti ilə nəticələnib.

## Güclü tərəflər

❖ Respondentlərin ümumilikdə 61,9%-nin fikrincə, mövcud dərs vəsaitlərinin məzmunu şagirdlərin şəxsiyyət kimi formalaşmasına uyğun hazırlanıb;

❖ Respondentlərin təqribən 79,1%-i dərs vəsaitlərində azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin təbliğini qənaətbəxş hesab edib;

❖ Respondentlərin 61,8%-ni orta məktəb dərsliklərinin tərtibatı qane edir;

❖ Respondentlərin 69,2%-i dərsliklərdə verilən tapşırıqları mənimsəmə və qavramada elə də bir çətinlik çəkmədiklərini qeyd edib;

❖ Respondentlərin əksər hissəsi hesab edir ki, təbiət fənləri ilə bağlı dərsliklər daha qanaətbəxş və səlis yazılıb. Məhz bu dərsliklərdə olan materiallar şagirdlər tərəfindən ansanlıqla qavranılır;

❖ Respondentlərin təqribən 79,1%-i dərs vəsaitlərində azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin təbliğini qənaətbəxş hesab ediblər;

❖ Respondentlərin ümumilikdə 61,9%-nin fikrincə, mövcud dərs vəsaitlərinin məzmunu şagirdlərin şəxsiyyət kimi formalaşmasına uyğun hazırlanıb;

❖ Respondentlərin ümumilikdə 74.5%-i dərsliklərdə Azərbaycan dilinin qaydalarına riayət olunduğunu düşünür;

❖ Respondentlərin 61,8%-ni orta məktəb dərsliklərinin tərtibatı qane edir;

❖ Respondentlərin 69,2%-i dərsliklərdə verilən tapşırıqları mənimsəmə və qavramada elə də bir çətinlik çəkmədiklərini bildirib;

❖ Kurikulumların mahiyyətinə uyğun hazırlanmış orta məktəb dərsliklərinin keyfiyyəti (mövzu və məzmun baxımından) respondentlərin ümumilikdə 63,1%-ni qane edib.

## Zəif tərəflər

❖ Respondentlər dəqiq fənlərə dair dərsliklərin mürəkkəbliyindən narazılıqlarını bildirib (xüsusilə riyaziyyat);

❖ Humanitar fənlər üzrə dərsliklər sorğudakı seçmədə daha çox narahatlıq doğurur. Respondentlər "Azərbaycan dili" (27,6%) dərsliklərində dil qaydalarının verilməsində pərakəndəliyin olduğunu, üslub və anlamada çətinliklər olduğunu qeyd ediblər;

❖ Respondentlər dərslikərdəki mövzuları uşaqların çox çətin qavradığını, dərsliklər hazırlanarkən uşaqların yaşlarının nəzərə alınmadığını, yuxarı və ibtidai sinif dərsliklərində verilən tapşırıqların şaqirdələrin yaş səviyyəsinə uyğun olmadığını bildiriblər;

❖ Respondentlər verilən tapşırıqlarda sualların çox mürəkkəb qoyulduğunu, ev tapşırıqlarında övladına kömək edən ali təhsilli valideyinlərin belə çətinlik çəkdiklərini, bundan əlavə, yeni dərslə əvvəlki dərslər arasında bağlılığın, əlaqənin demək olar ki, olmadığını və ya az olduğunu bildiriblər. Onlara görə, şagirdlərin ibtidai sinifdən başlayaraq repetitorların yanına hazırlığa getməsinin ən başlıca səbəbi dərsliklərin mürəkkəb olmasıdır;

❖ Narazı qalan respondentlər dərsliklərdə estetik və poliqrafik baxımından bəzi qüsurların olduğunu, müasir standartların tələblərinə cavab vermədiyini, çap xətalarına yol verildiyini, şəkillər, cədvəllər, sxemlər və s.-nin metodiki baxımdan mövzunun daha tez mənimsənilməsinə istənilən imkanı yaratmadığını bildiriblər. Onların fikrincə, dərsliklərin tərtibatı məktəblilərdə dərsə, fənnə, kitaba və mütaliəyə həvəs yaratmalı, xüsusi tibbi və kimyəvi analizlərdən də keçirilməlidir;

❖ Narazılıq doğuran məsələlərdən biri də dərsliklərin dili və yazı üslubu ilə bağlı olmuşdur. Ən çox fizika, Azərbaycan dili, ədəbiyyat, tarix, kimya, biologiya, həyat bilgisi, informatika və s. dərsliklərdə istifadə olunan dil və yazı üslubu haqqında respondentlər öz narazılıqlarını bildiriblər. Belə ki, bəziləri dil qaydalarının az verilməsindən, bunun əksinə olaraq mətnlərin çoxluğundan şikayətlənir, bu mənada dərsliklərin daha çox ədəbiyyat dərsliklərinə oxşadığını bildiriblər. Dərsliklərində qaydaların izahına çox yer verilir, nümunə xarakterli faktoloji materiallar azdır;

❖ Valideyn respondentlər arasında ən çox narahatlıq doğuran məsələ xüsusilə ibtidai sinif şagirdlərinin material yükünün və bununla bilavasitə bağlı olan məktəbli çantalarının ağır olmasıdır. Ekspertlərin fikrincə, bir rüb ərzində keçiriləcək bütün dərslər toplanıb bir kitabda dərc edilərsə, uşaqların daşıdıqları ağırlıq daha az olar;

❖ Respondentlər dərs vəsaitlərinin məzmununun şagirdləri əmək bazarına hazırlamaq üçün uyğun olmadığını qeyd ediblər;

❖ Respondentlərin 50,5%-i dərsliklərdə olan materialların və şagirdlərin aldığı biliyin onları tam formada ali məktəbə hazırlamq üçün yetərli olmadığını və bu səbəbdən də şagird və abituryientlərin repetitora müraciət etdiklərini qeyd ediblər;

❖ Respondentlər ümumilikdə bu qənaətdədirlər ki, orta məktəb dərslikləri SAT imtahanlarını vermək üçün tələb olunun bilikləri verə bilmir.

## Nəticə

Heç şübhəsiz, keyfiyyətli dərslik tədris prosesində qarşıya çıxa biləcək bir çox problemi aradan qaldırır, təlimin səmərəliliyini artırır, şagirdlərin biliklərinin sistemləşdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan verir. Keyfiyyətli dərsliyin metodoloji əsasını elmi və pedaqoji yanaşmalar arasında diskussiyalar təşkil edir. Bu onunla izah edilir ki, dərslik müəllifləri müasir elmlərdə qəbul edilən ən son versiyaları və hadisələrin şərhlərini yaxşı bilməlidirlər. Ümumiyyətlə, dərslik təhsil sahəsində iş təcrübəsi olan və tədris prosesinin iştirakçılarının xüsusi ehtiyaclarını başa düşən müəlliflər tərəfindən yazılmalıdır. Beynəlxalq təcrübəyə görə, dərs vəsaitlərinin nəşri hər bir ölkənin Təhsil Nazirlikləri tərəfindən təsdiqlənmiş tədris proqramlarına ciddi əməl edilməklə özəl nəşriyyatlar tərəfindən həyata keçirilir.

### Aparılan sorğunun konkret nəticələrinə gəldikdə isə, onları aşağıdakı kimi qruplaşdırmaq olar

❖ Kurikulumların mahiyyətinə uyğun hazırlanmış orta məktəb dərsliklərinin keyfiyyəti (mövzu və məzmun baxımından) respondentlərin ümumilikdə 63,1%-ni qane etsə də, 36,9 faiz respondent dərsliklərin keyfiyyətinin aşağı olduğunu düşünür. Respondentlər ən çox “Azərbaycan dili” (27,6%), “Riyaziyyat (24,6%),” “Tarix” (19,2%) və “Ədəbiyyat” (16,3%) dərsliklərinin keyfiyyətindən narazı olduqlarını bildiriblər.

❖ Respondentlərin 69,2%-i dərsliklərdə verilən tapşırıqları mənimsəmə və qavramada elə də bir çətinlik çəkmədiklərini, 30,2%-i isə bəzi fənlərə aid dərsliklərin (məsələn, IV sinif "Riyaziyyat”, IX sinif "Fizika" dərsliyi və s.) həddən çox mürəkkəb olduğunu bildiriblər. Respondentlərin 45%-ə yaxını dərsliklərdə verilən tapşırıqların izahı ilə bağlı öz narazılıqlarını bildiriblər. Onların fikrincə, “Riyaziyyat” dərsliklərinin əksəriyyətində çoxsaylı səhvlərə yol verilir. Misallar kifayət qədər çətindir. 5-ci sinif şagirdlərinə milyonları, yüz milyonları yuvarlamaq barədə tapşırıqlar verilir. Nəticədə şagirdlərin beyni dözülməz dərəcədə yüklənir;

❖ Respondentlərin 57,3% belə düşünür ki, dərsliklərdə verilən tapşırıqlar şagirdlərin yaş, psixoloji və fizioloji meyarlarına uyğundur. Bunun əksini düşünən 42,7% respondent bu fikirdədir ki, dərsliklər hazırlanarkən uşaqların yaşları nəzərə alınmır. Respondentlər dərsliklərdəki mövzuları uşaqların çox çətin qavradığını, əsasən də Azərbaycan dili, riyaziyyat, fizika, tarix, ədəbiyyat və ibtidai sinif dərsliklərində verilən çalışmaların uşaqların yaş səviyyəsinə uyğun olmadığını bildiriblər. Onlar habelə çalışmalarda sualların çox mürəkkəb qoyulduğunu, ev tapşırıqlarında övladlaına kömək edən ali təhsilli valideynlərin belə II, III sinif dərsliklərində çətinlik çəkdiklərini, bundan başqa, yeni dərslə əvvəlki dərslər arasında bağlılığın, əlaqənin demək olar ki, olmadığını və ya çox az olduğunu qeyd ediblər. Respondentlərin fikrincə, şagirdlərin ibtidai sinifdən başlayaraq repetitorların yanına hazırlığa getməsinin ən başlıca səbəbi dərsliklərin mürəkkəb olmasıdır;

❖ Respondentlərin 61,8%-ni orta məktəb dərsliklərinin tərtibatı qane edir. Narazı qalan 38,2% respondent dərsliklərdə estetik və poliqrafik baxımından bəzi qüsurların olduğunu, müasir standartların tələblərinə cavab vermədiyini, çap xətalarına yol verildiyini, şəkillər, cədvəllər, sxemlər və s.-nin metodiki baxımdan mövzunun daha tez mənimsənilməsinə istənilən imkanı yaratmadığını bildiriblər. Onların fikrincə, dərsliklərin tərtibatı məktəblilərdə dərsə, fənnə, kitaba və mütaliəyə həvəs yaratmalı, xüsusi tibb və kimyəvi analizlərdən də keçirilməlidir;

❖ Narazılıq doğuran məsələlərdən biri də dərsliklərin dili və yazı üslubu ilə bağlı olmuşdur. Respondentlərin 34,7%-i bu məsələ ilə bağlı narazılıqlarını ifadə ediblər. Ən çox fizika, Azərbaycan dili, ədəbiyyat, tarix, kimya, biologiya, həyat bilgisi, informatika və s. dərsliklərdə istifadə olunan dil və yazı üslubu haqqında respondentlər öz narazılıqlarını bildiriblər.

❖ Respondentlərin ümumilikdə 74.5%-i dərsliklərdə Azərbaycan dilinin qaydalarına riayət olunduğunu düşünür. Respondentlə-

rin və ekspertlərin "Azərbaycan dili" dərslikləri ilə bağlı qeyd etdikləri iradlara gəldikdə isə burada fərqli fikirlər ortaya çıxır. Belə ki, bəziləri dil qaydalarının az verilməsindən, bunun əksinə olaraq mətnlərin çoxluğundan şikayətlənir. İkinci qrup isə əksinə, belə düşünür ki, "Azərbaycan dili" dərsliklərində qaydaların izahına çox yer verilir, nümunə xarakterli faktoloji materiallar azdır;

❖ Valideyn respondentlər arasında ən çox narahatlıq doğuran məsələ xüsusilə ibtidai sinif məktəbli çantalarının ağır olmasıdır. Respondentlərin 83%-i orta məktəb dərsliklərinin material yükünün ağır olduğunu düşünür. Ekspertlərin fikrincə, bir rüb ərzində keçiriləcək bütün dərslər toplanıb bir kitabda dərc edilərsə, uşaqların daşıdıqları ağırlıq daha az olar.

❖ Respondentlərin ümumilikdə 61,9%-nin fikrincə, mövcud dərs vəsaitlərinin məzmunu şagirdlərin şəxsiyyət kimi formalaşmasına uyğun hazırlanıb.

❖ Ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılması prioritet olduğu halda, ali təhsildə əmək bazarının cari və gələcək tələbləri əsas götürülür. Respondentlərin 43,6%-i dərs vəsaitlərinin məzmununun şagirdləri əmək bazarına hazırlamaq üçün uyğun olmadığını qeyd edib.

❖ Respondentlərin 50,5%-i dərsliklərdə olan materialların və şagirdlərin aldığı biliyin onları tam formada ali məktəbə hazırlamq üçün yetərli olmadığını və bu səbəbdən də şagird və abituryentlərin repetitor müəllimlərə müraciət etdiklərini qeyd ediblər.

❖ Respondentlərin ümumilikdə 55,5%-i bu qənaətdədir ki, orta məktəb dərslikləri SAT imtahanlarını vermək üçün tələb olunun bilikləri verə bilmir.

❖ Respondentlərin təqribən 79,1%-i dərs vəsaitlərində azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin təbliğini qənaətbəxş hesab ediblər.

❖ Ekspertlərin fikrincə, dərsliklər müasir dövrün tələblərinə cavab verməli, müasir iqtisadi inkişafın və sosial sahənin tələblərinə uyğun tərtib olunmalı və mütləq məktəblilərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır.

## Təkliflər

Orta məktəb dərsliklərinin vəziyyətinə dair keçirilən sorğunun nəticələrini, aparılan araşdırmaları və təhlilləri nəzərə alaraq aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilir:

❑ Dərsliklərin hazırlanması, ekspertizası və nəşri sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və nəzərə alınması zəruridir. Beynəlxalq təcrübənin öyrənilməsi dərsliklərin keyfiyyətinin yüksəlməsinə, müasir dərsliyin nəzəri və praktik məsələləri üzrə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə təminat verir.

❑ Orta məktəb dərsliklərinin çap olunması və tenderlərin keçirilməsi Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Təhsilin inkişafı üzrə strategiyada da göstərilir ki, dərsliklər bir neçə variantda hazırlanmalı, ən azı 1 il ərzində ölkənin ayrı-ayrı məktəblərində qabaqcıl müəllimlər arasında müzakirə olunduqdan, əlavə və dəyişikliklər nəzərə alındıqdan sonra çap olunmalıdır. Aparılan araşdırmalar göstərir ki, çox zaman bu proses qeyd olunduğu kimi aparılmır. Bəzən orta məktəb müəllimləri bu prosesdən kənarda qalır, dərsliklərin yazılmasına ali məktəb müəllimləri, hətta repetitorlar cəlb olunur. Nəticədə dərsliklər ali məktəb müəllimləri tərəfindən yazıldığı təqdirdə onların dili və tapşırıqların məzmunu çox mürəkkəb olur. Orta məktəb dərsliklərinin yazılmasına repetitor müəllimlərin cəlb edilməsinə isə qətiyyən yol vermək olmaz. Onlar dərslikləri öz fəaliyyət istiqamətlərinə uyğun yazmağa çalışır, qısa müddətdə daha çox informasiya verməyə çalışırlar ki, şagirdi və yaxud abituriyenti qəbula hazırlaşdırsınlar. Nəticədə ortaya normalar və standartlara uyğun olmayan dərsliklər çıxır. Bu da sonradan öz ciddi fəsadlarını verir. Bütün bunları nəzərə alıb dərsliklərin fənlər üzrə təcrübəli orta məktəb müəllimləri tərəfindən hzırlanması, Dövlət İmtahan Mərkəzinin ekspertlərinin də prosesə cəlb edilməsi, ən azı 1 il ərzində ölkənin ayrı-ayrı məktəblərində qabaqcıl müəllimlər arasında müzakirə olunduqdan, əlavə və dəyişikliklər nəzərə alındıqdan sonra çap olunması tövsiyə edilir. Bu pro-

sesdə müəyyən iş təcrübəsinə malik olan orta məktəb müəllimlərinin dərslik müəllifləri, elmi redaktor və nəşriyyatlarla birgə işi təşkil edilməlidir.

❑ Hər bir fənn üzrə Ekspert Şurası ilə yanaşı, Koordinasiya, Təhlil və Rəy Komissiyasının formalaşması məqsədəuyğundur. Sözügedən komissiyalar dərsliklərin məzmunu və keyfiyyətinə, standartlara uyğun olub-olmamasına ciddi diqqət yetirməlidir. Bu komissiyalara alimlərlə yanaşı, yüksək ixtisaslı metodist-müəllimlər, həkimlər, psixoloqlar, sosioloqlar və loqopedlər dəvət olunmalıdır.

❑ Dərsliklərdə elmi mübahisə doğuran məsələlərə yer verilməməli, elm, texnologiya və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və mötəbər mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır;

❑ Dərsliklərin tərtibatı və hazırlanmasında şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri mütləq nəzərə alınmalı, daha çox didaktik xarakterli, şagirdlərin dünyagörüşünü düzgün formalaşdıran və genişləndirən materialların verilməsinə diqqət yetirilməlidir. Bu kontekstdə ümumilikdə orta məktəblərdə psixoloq təsisatının inkişaf etdirilməsi arzu olunandır. Məhz bu halda intiharların, erkən nikahların, pis və zərərli vərdişlərin sayı azalar;

❑ Dərsliklər şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılamalı, onları düşünməyə sövq etməli, məntiqi təfəkkürü inkişaf etdirməlidir, tətbiqi xarakter daşımalı, inteqrativ xüsusiyyətə malik olmalıdır;

❑ Dərsliklərin tərtibatına yüksək ixtisaslı poliqrafçıların cəlb edilməsi, xüsusi maraq doğuran illüstrasiyaların yerləşdirilməsi, məktəblilərin göz yaddaşının daha çox inkişaf etdirilməsi arzu olunandır;

❑ Şagirdlərin nitq mədəniyyətinin, ünsiyyət formalarının inkişafına dərsliklərdə xüsusi yer ayrılmalıdır. Bundan başqa, dərsliklər şagirdlərin söz ehtiyatını zənginləşdirməli, bu səbəbdən şagirdlərin dərsliklərdə rastlaşdığı yeni sözlərin izahı verilməlidir (qırmızı, yaxud göy çərçivədə);

❑ Summativlərin sayının azaldılması, şagirdlərin yaşına, psixologiya və qavrama qabiliyyətinə uyğun hazırlanması tövsiyə edilir. Məsələn, respondentlərin iradlarından biri də summativlərdə 3-cü sinifdə Şah İsmayıl Xətai ilə bağlı məlumatların daxil edilməsi ilə bağlı olub.

❑ "Ədəbiyyat" dərsliklərindən çıxarılmış Azərbaycanın bir çox tanınmış şair və yazıçıların əsərlərinin yenidən oraya daxil edilməsi, həmçinin XXI əsrin yazıçı və şairlərinin əsərlərinin də nəzərə alınması arzu olunandır. Belə olan halda şagirdlər müasirlərini də tanımış olarlar;

❑ "Coğrafiya"dərsliklərində Azərbaycan haqqında məlumatların daha geniş verilməsi və dərsliklərin sadələşməsi tövsiyə edilir;

❑ Dərsliklərdə Azərbaycanın Milli Qəhrəmanları, tarixi şəxsiyyətləri, Bakı milyonçuları və xeyriyyəçiləri haqqında materialların daha geniş verilməsi məqsədəuyğundur;

❑ Dərsliklərdə keçilən mövzuların təkrarına yer verilməsi, kiçik yaşlı şagirdlərdə alternativ dərsliklərin çətinlik yaratdığını nəzərə alıb onların aradan qaldırılması arzu olunandır;

❑ Sorğunun nəticələrinin təhlili, aparılan müsahibələr göstərir ki, rus sektoru üçün hazırlanmış dərsliklərdə bir sıra tərcümə problemləri müşahidə edilir. Belə ki, bu dərsliklərdə yer alan azərbaycanlı şair və yazıçıların əsərlərinin tərcümələri qənaətbəxş deyil. Rus bölməsi üzrə ibtidai siniflər üçün hazırlanmış "Riyaziyyat" dərsliklərində verilən tapşırıqlarda cümlələr səhv tərcümə olunub. Üslub səhvləri misal və məsələlərin həllində çətinlik yaradır. Bütün bunları nəzərə alıb rus sektorunda təhsil alan şagirdlər üçün hazırlanmış dərsliklərin mükəmməl, aydın və oxunaqlı halda tərcümə olunması tövsiyə edilir;

❑ Respondentlərin iradlarından biri də rus sektoru üçün hazırlanmış dərsliklərdə 20 Yanvar, Xocalı soyqırımı, 31 Mart hadisələri ilə bağlı məlumatlara az, təəccüblü də olsa, Harri Potter haqqında materiallara isə nisbətən geniş yer verilməsidir. Rus sektoru üçün hazırlanmış dərsliklərdə Azərbaycan tarixi və ədəbiyyatı ilə bağlı məlumatların daha geniş verilməsi arzu olunandır.

❑ Orta məktəblərdə hərbi hazırlıq dərs-

lərinin təqaüdə çıxmış zabitlər tərəfindən keçirilməsi məqsədəuyğun hesab edilir. Bu mütəxəssislər şagirdlərdə hərbi-vətənpərvərlik hisslərinin aşılanmasında, canlı ünsiyyətdə vətənə xidmət nümunəsi kimi mühüm rol oynaya bilər;

- ❑ Dərs vəsaitlərinin məzmununun əmək bazarının tələblərinə uyğunlaşdırılması, məktəblilərə peşə seçimində köməklik etməsi, onlarda texniki peşə təhsilinə maraq yaratması arzu olunandır;
- ❑ Dərsliklərdə Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, ölkənin qoşulduğu beynəlxalq hüquqi aktlara zidd olan fikirlərə yer verilməməlidir;
- ❑ Dərsliklərdə şagirdlərin Azərbaycan xalqının milli mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalara daha çox yer verilməsi məqsədəuyğundur;
- ❑ Xarici təcrübədə olduğu kimi tədricən elektron dərsliklərə keçid prosesi sürətləndirilməlidir. Şagirdlərin göz və qulaq yaddaşının elektron dərsliklər vasitəsi ilə inkişaf etdirilməsi, bu işi həyata keçirmək üçün xaricdən yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi tövsiyə edilir.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
info@stm.az     www.stm.az